**AQTA-nın əməkdaşlıq elədiyi qurumlar:**

1. **Rumıniya Kənd Təsərrüfatı və Kənd Yerlərinin İnkişafı Nazirliyi** Kənd təsərrüfatı, kənd yerlərinin inkişafı, qida sənayesi, balıqçılıq, fitosanitariyaya və əlaqəli sahələr üzrə milli strategiya və siyasətləri hazırlayan, həyata keçirən və əlaqələndirən mərkəzi icra hakimiyyəti orqanıdır. https://www.madr.ro

2. **Rumıniyanın Milli Sanitar Baytarlıq və Qida Təhlükəsizliyi Qurumu (ANSVSA)** Sanitar-baytarlıq və qida təhlükəsizliyi sahəsində əsas tənzimləyici və icraedici mərkəzi qurumdur; xammaldan tutmuş istehlakçı məsələlərinə qədər qida zəncirinin bütün mərhələlərində rəsmi nəzarəti həyata keçirir, heyvan sağlamlığı və rifahını qoruyur, sərhəd nəzarətini təşkil edir, risk qiymətləndirilməsi və kommunikasiya aparır, pestisid istifadəsini izləyir və fövqəladə vəziyyətlərin idarə olunmasında iştirak edir. https://www.ansvsa.ro

3. **Rumıniyanın Milli Fitosanitar Qurumu (ANF)** Rumıniya Kənd Təsərrüfatı və Kənd Yerlərinin İnkişafı Nazirliyinin tabeliyində bitki sağlamlığı və karantini üzrə mərkəzi səlahiyyətli qurum olub ölkə miqyasında fitosanitar nəzarəti təşkil edir; bitki mühafizəsi strategiya və normativlərini hazırlayır, bitki mühafizə vasitələrinin (pestisidlərin) qeydiyyatı və istifadəsinə nəzarət edir, pestisid qalığı monitorinqi və fitosanitar tədbirləri koordinasiya edir. https://www.anfdf.ro

4. **Baytarlıq Gigiyenası və İctimai Səhiyyə İnstitutu (IISPV)** ANSVSA-nın tabeliyində fəaliyyət göstərən və publik hüquqi şəxs statusuna malik olan milli istinad qurumudur, qida məhsulları (heyvan və qeyri-heyvan mənşəli) və yemlər üzrə laborator nəzarət aparan, milli istinad institutu və mərkəzi texniki-metodiki dəstək qurumudur; qida təhlükəsizliyi proqramlarının icrası və laborator şəbəkəsinin koordinasiyasına dəstək verir. https://www.iispv.ro